# 44 günün xronikası fotolarda...




***Tofiq Babayev*** – 1 oktyabr 1979-ci ildə Bakı şəhərində anadan olub. 1996 ildən mətbuatdadır. Məqalələri və fotoşəkilləri tez-tez "Bakı" və "Баку", "Бакинский рабочий", "Неделя", "Комсомольская Правда-Баку", "Азербайджанские Известия" qəzetlərinin səhifələrində dərc olunub. 2012-ci ildən etibarən beynəlxalq fotoagentliklərlə əməkdaşlıq edir. 2016-cı ildən Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) fotomüxbir kimi çalışır.

**T.B:** *Sentyabr ayının 28-də mən Füzuli istiqamətinə çəkilişə yollandım. Artıq bu istiqamətdə döyüşlər gedirdi. Təəssüf ki, həmin anları çəkməyə icazə olmadığından biz yalnız dağılmış ərazilərdə işləməyə məcbur idik. Daha sonra Bərdə və Tərtər rayonlarına getdik. Ən böyük dağıntılar da bu yerlərdə idi. Mən yenidən Füzuli, Beyləqan, Cəbrayıl rayonlarına qayıtdım və çəkilişlərimi həmin ərazilərdə davam etdirdim. Psixoloji cəhətdən bütün bunları çəkmək çox çətin idi. Lakin biz bunu etməli idik.*


Famil Mahmudbəyli


Tofiq Babayev


Tofiq Babayev


İlqar Cəfərov


**İvor Prickett**
Mükafata layiq görülmüş fotoşəkil - Azərbaycanlı qadın Gəncəyə erməni raket hücumu nəticəsində həlak olmuş qardaşının əlini öpür.


Famil Mahmudbəyli


Famil Mahmudbəyli


Famil Mahmudbəyli




***Rəşad Mehdiyev*** – 7 mart 1986-cı ildə Bakı şəhərində anadan olub. İxtisasca jurnalistdir. 2003-cü ildən mətbuatdadır. Uzun illərdir fotoqraf kimi də fəaliyyət göstərir. Bir çox beynəlxalq müsabiqələrdə iştirak edib, 50-dən artıq beynəlxalq mükafat qazanıb. 2018-ci ildən beynəlxalq fotoqraf dərəcəsinə malikdir. "Gilavar" Azərbaycan Foto Klubunun həmtəsisçisi və həmsədridir. Hazırda AZƏRTAC-ın fotomüxbiri kimi çalışır.

**R.M:** *Döyüşlərin ilk həftələri mən Bakıda fəaliyyət göstərməli idim. Çünki bizdən əvvəl bir neçə qrup ön cəbhəyə getmişdi. Amma vaxtı gələndə mən də döyüşlər gedən ərazilərə ezam olundum. Tərtər rayonunda zərər görmüş kəndləri çəkirdik. Çəkiliş zamanı yaxınlığımızda olan Tərtər Pambıq Zavodu atəşə məruz qaldı və anbarlardan birində yanğın baş verdi. Biz yanğını çəkən zaman ətrafımıza bir neçə mərmi düşdü. Xoşbəxtlikdən heç kim xəsarət almadı. Top, qrad səslərinin altında çəkiliş aparırdıq. Torpaqlarımız işğaldan azad olunduqca həmin ərazilərdə də çəkilişlər edirdim. Hər tərəf mina, partlamamış kasetli, fosforlu, smerç tipli raket və mərmilərlə dolu idi. Hər yer təhlükə mənbəyi idi. Çox çətin günlər idi.*


Tofiq Babayev


Rəşad Mehdiyev


Rəşad Mehdiyev


Tofiq Babayev


Zaur Mustafayev


Rəşad Mehdiyev


Rəşad Mehdiyev


Tofiq Babayev


Tofiq Babayev



***Vəli Şükürov*** – Sentyabr ayının 27-si müharibə başlayan gündən cəbhəyanı bölgələrə yollandım. İlk 8-10 günü Tərtər rayonunda oldum. Burada gördüklərim həm dəhşətli, həm də qürurverici idi. Dəhşətli ona görə ki, ən çox ziyan görən rayon Tərtər idi. Lakin insanlar deyirdilər ki, biz razıyıq evimiz dağılsın, amma əsgərlərimizə heç nə olmasın. Düşmənin atdığı raket evimizə dəysin, bizim əsgərimizə, zabitimizə heç nə olmasın. Mövzu vətəndirsə başqa söhbət ola bilməz. Xalq ordumuza dəstək idi. Xaricdə yaşayan soydaşlarımız da eləcə. Daha sonra Gəncə və Bərdə hadisələri zamanı həmin ərazilərdə olduq. Burda da insanlarla söhbət zamanı istər evi dağılmış, istər yaxınını itirmiş kimsədə ruh düşkünlüyü yox idi. Bizim qələbə qazanmağımızın səbəblərindən biri də məhz bu oldu. Xalqımızın birliyi və Azərbaycan Ordusuna inamı!


Vəli Şükürov


Vəli Şükürov



Tofiq Babayev


Azər İbrahimov


Tofiq Babayev


Ramil Zeynalov


Zaur Mustafayev


Roman İsmayılov


Tofiq Babayev


İlqar Cəfərov


Azər İbrahimov


Poman İsmayılov


Poman İsmayılov


Ramil Zeynalov


Tofiq Babayev


Azər İbrahimov


Poman İsmayılov


Rəşad Mehdiyev


Famil Mahmudbəyli


Famil Mahmudbəyli





Məhəmməd Türkmən


Teymur Məmmədov


Vəli Şükürov

***Məhəmməd Türkmən*** – Səkkiz ildir mətbuatdayam. Bu illər ərzində cəbhə bölgələrində olmuşam. 2014-cü ilin avqust hadisələri, 2016-cı ilin aprel döyüşləri, 2020-ci ilin iyul hadisələri. Bu dəfə başqa cür oldu. Əvvəlki döyüşləri çəkmək daha asan idi. Bu dəfə isə bir qədər məhdudiyyətlər qoyulmuşdu.
Müharibənin ilk günlərindən cəbhəyanı bölgələrə getdik. Çəkilişlər apardıq. Əsasən cənub bölgəsində, daha dəqiq desək, Füzuli istiqamətində işlədim. Bu müddət ərzində iki fotoaparatım sıradan çıxdı. Bunlara baxmayaraq çox gözəl hiss idi: qələbə, zəfər döyüşlərində milyonlarla nöqtə varsa, onlardan biri də sənsən. Bu hər adama qismət olmur. Qələbənin bir parçası olmaq, o hissləri, o həyəcanı yaşamaq möhtəşəm idi.


Pərvin Zeynalov





Famil Mahmudbəyli


Pərvin Zeynalov

***Pərvin Zeynalov*** – Sentyabr ayının 28-dən, müharibə başlayan ilk günlərdən Tərtər və Ağdam bölgələrinə ezam olunduq. Günlərlə, həftələrlə bu mühitdə qaldıqca buradakı ab-havaya öyrəşdik, oradakı təhlükəni hiss etməyə başladıq. O təhlükə, o psixoloji basqı altında özümüzü itirmədik. Dağılmış evləri, yaralanmış insanları, bəzən hədəfə alınmış mülki şəxslərin cansız bədənlərini çəkdik. Həmçinin Gəncə və Bərdədə baş vermiş terror aktını işıqlandırmaq çox çətin, çox ağır idi. Oradakı insanların ağır durumunu, dinc əhalinin qətlə yetirilməsini soyuqqanlı, emosiyasız çəkmək mümkün deyildi. Amma bu, vəzifəmiz və borcumuz idi. Biz bunu bacarmalıydıq - milli tariximiz üçün.

## Natiq İsayev



*25 iyul 1990-cı ildə Bakı şəhərində anadan olub. Ölkənin tanınmış fotoqrafları sırasında layiqli yer tutur və ölkəmizi xarici foto müsabiqələrdə təmsil edir. Hazırda Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzində fotomüxbirdir. Həm də hərbi mükəlləfiyyətlidir. Hərbçi olması ilə fəxr edir.*





**N.İ:** Ali Baş Komandanın və Müdafiə Nazirinin göstərişi ilə Nazirliyin çəkiliş heyəti döyüşlərə cəlb olunmuşdu. Mən də həmin heyətə daxil idim.

Döyüşlərdə fotoqraf kimi çalışmağın özü də cəsarət tələb edir. Dəfələrlə çətin anlarla, çətin vəziyyətlərlə qarşılaşmağımıza baxmayaraq bu döyüşlərdə əsgər və zabitlərimizin döyüş əzmini, Azərbaycanın, müzəffər Odrumuzun zəfərini işıqlandırıb dünya ictimaiyyətinə çatdırmağı özümə borc və şərəf işi bildim! Bunu izah etmək, doğrusu, insana çətin gəlir. O anları yaşamayana, görməyənə qədər. Düzdür, fotoqraf olaraq təlimlərdə yetərincə iştirakım olub, kifayət qədər atış məşqlərində, irimiqyaslı hərbi təlimlərdə də iştirak etmişəm. Amma real döyüşləri çəkmək nə təlimə bənzəyirdi, nə də atış məşqlərinə. Çünki həmin an bilmirsən hansı şəraitlə qarşılasacaqsan. Mərmilər, güllələr başımızın üstündən yağış kimi yağırdı. Hətta deyərdim an və yaxud da saniyə məsələsi olub ki, çəkiliş üçün məkan dəyişərkən həmin yerə top mərmisi düşüb. Yəni bu anları biz döyüş meydanında hər gün, hər saat, hər dəqiqə yaşayırdıq. Ağıla gəlməyən yerlərə, mənzillərə belə minalar quraşdırıb qaçmışdılar. Bir şeydən əmin olduq ki, istənilən yanlış addım həyatımız bahasına başa gələ bilər.

Cəbhədəki vəziyyətə gəldikdə isə durumlar artıq göz qabağında idi. Rəşadətli və müzəffər Azərbaycan Ordusu cənab Ali Baş Komandanımızın rəhbərliyi altında artıq döyüş meydanında öz sözünü dedi. Əsgər fəth etdiyimiz hər zirvədən yüksəkdədir. Əsgərdən yüksəkdə isə dalğalanan üçrəngli Bayrağımızdır. Məhz onun ucaltdığı bayraq... Onun kölgəsi isə bizim Vətənimizdir. Vətəninə sahib çıxan əsgərlərimiz var. Azərbaycanın 44 gün ərzində azad etdiyi hər qarış torpaqda tökülən şəhid qanı, o torpaqların damarlarında daim dolaşacaq. Mən bütün şəhid qardaşlarımızın ruhu qarşısında baş əyirəm. Onlarla çiyin-çiyinə döyüşlərdə iştirak etmək mənim üçün bu həyatda ən böyük şərəf oldu. Eyni zamanda döyüşlər zamanı və döyüşlərdən sonra, müharibənin nəticələrini işıqlandıran fotoqraf həmkarlarım qəhrəmandırlar, onlar da əzmlə, rəşadətlə, qorxmadan 44 gün ərzində baş verənləri işıqlandırdılar, kameralarının yaddaşlarına həkk etdilər. Biz bərabər vətənimizin tarixini kameraların yaddaşına və ölkəmizin tarixinə həkk etdik!

"Gilavar" Azərbaycan Foto Klubuna və "Mədəniyyət/Culture" jurnalına da minnətdaram ki, bizi unutmursuz! ❖



**Zöhrə Əliyeva**